AVROPA İNVESTİSİYA BANKI VƏ

# ŞƏRQ QONŞULUĞU ÖLKƏLƏRİ



European Investment Bank

The EU bank

# AİB VƏ Aİ-NİN ŞƏRQ QONŞULUĞU

Avropa İnvestisiya Bankının əsas fəaliyyət istiqaməti sosial-iqtisadi infrastruktur, özəl sektorun inkişafı və iqlim dəyişikliyi ilə mübarizəyə yönəlir. Biz regionun dayanıqlılığının artmasına və müasirləşdirilməsinə töhfə verən layihələrə dəstək göstəririk. Bizim investisiyalarımız Şərq Qonşuluğu ölkələrinin vətəndaşlarına fayda verməklə yanaşı, onların Avropa İttifaqı (Aİ) və onun üzv dövlətləri ilə münasibətlərini möhkəmləndirir.

Biz 2009-cu ildən etibarən Aİ-nin Şərq Qonşuluğu çərçivəsində uzunmüddətli investisiya layihələrinə dəstək göstərməkdəyik.

## BİZ NƏ TƏKLİF EDİRİK?

Biz yüksək keyfiyyətli layihələrin hazırlanması və qiymətləndirilməsi üçün öz mühəndislərimizin və iqtisadçılarımızın bilik və təcrübələrini bölüşürük. Aİ-nin strateji istiqamətli, yüksək kredit reytinqinə malik maliyyə institutu kimi, biz rəqabətqabiliyyətli faiz dərəcələri və layihələrə uyğunlaşdırılmış kredit müddətləri kimi cəlbedici maliyyə şərtləri təklif edirik. Biz dəstəklədiyimiz layihələrin inkişafa təsirlərini daha da yaxşılaşdırmaq üçün Avropa İttifaqı və digər donorlarla tərəfdaşlığımız vasitəsilə qrantlar verə bilirik.

AİB Şərq Qonşuluğu ölkələrindəki əksər layihələri Aİ-nin Xarici Kredit Mandatı çərçivəsində maliyyələşdirir. Bu mandat AİB-i özəl və dövlət sektorunun inkişafına yönələn layihələr üçün Aİ zəmanəti ilə təmin edir.

**AİB-in investisiyaları, ölkələr üzrə (2009-cu ildən)**




**Şərq Qonşuluğu ilə imzalanmış kreditlər (2009-2018)**



# BİZİM TƏSİRİMİZ

Şərq Qonşuluğu regionunda AİB əsas diqqətini keyfiyyətli iş yerlərinin yaradılmasına və iqtisadi artımın dəstəklənməsinə, sənaye və infrastrukturun inkişafına, innovasiyaların dəstəklənməsinə və sərfəli və təmiz enerjinin təmin olunmasına yönəldir. Paris Sazişinə uyğun olaraq, iqlim dəyişikliyi ilə mübarizə AİB-in kreditləşmə fəaliyyətlərinin əsas prioritetlərindən biridir. Təmin etdiyimiz maliyyələşdirmə sayəsində biz BMT-nin 2030-cu ilədək Dayanıqlı İnkişaf Məqsədlərinə (DİM-lər) nailolma üçün tələb olunan maliyyələşmənin cəlb edilməsi üçün katalizator kimi çıxış edirik.

**Regionun DİM-lərə nail olmasına dəstək (imzalanmış kreditlər, 2015–2018)**

- ali təhsil müəssisələrinin tələbələri üçün təmir edilmiş binaların **siniflərində 7054 yer**
- **12 milyon nəfərin** təkmilləşdirilmiş su və kanalizasiya xidmətlərindən faydalanması
- **158 000 ev təsərrüfatının** təmiz elektrik enerjisinə çıxış imkanı əldə etməsi
- kiçik və orta ölçülü müəssisələrdə, mikro-müəssisələrdə **370 000 iş yerinin** qorunub saxlanılması
- təkmilləşdirilmiş ictimai nəqliyyatda hər il **21 milyon sərnişindaşıma**





# ŞƏRQ TƏRƏFDAŞLIĞI TƏŞƏBBÜSÜ

Şərq Tərəfdaşlığı 2009-cu ilin may ayında Avropa İttifaqı, onun üzv dövlətləri və altı tərəfdaş Şərqi Avropa ölkəsinin (Ermənistan, Azərbaycan, Belarus, Gürcüstan, Moldova Respublikası və Ukrayna) cəlb olunduğu birgə strateji təşəbbüs kimi yaradılıb.

Avropa İttifaqı özünün şərq sərhəddində yerləşən ölkələrdə dayanıqlı inkişaf və vətəndaşların rifahının təşviqi istiqamətində fəaliyyət göstərir. AİB 2020-ci ilədək gözəçarpan nəticələrin əldə olunması ilə bağlı dörd əsas prioritetin müəyyən olunduğu Şərq Tərəfdaşlığı Sammitinin (2015-ci il) məqsədlərini dəstəkləyir:

1. **Daha güclü iqtisadiyyat:** iqtisadi inkişaf və bazar imkanları
2. **Daha güclü əlaqəlilik:** insanların və yerlərin əlaqələndirilməsi, enerji səmərəliliyi, ətraf mühit və iqlim dəyişikliyi
3. **Daha güclü idarəçilik:** qurumların gücləndirilməsi və yaxşı idarəçilik
4. **Daha güclü cəmiyyət:** mobillik, peşəkar bacarıqların və şəbəkələrin formalaşdırılması

**2009-cu ildə Şərq Tərəfdaşlığı təşəbbüsünün yaradılmasından bəri, AİB regionda 96 layihənin dəstəklənməsinə 8.8 milyard avro ayırıb.**



# DAHA GÜCLÜ İQTISADİYYATLAR

AİB Şərq Tərəfdaşlığı regionunda daha güclü və daha şaxələnmiş iqtisadiyyatların formalaşdırılmasına səy göstərir. Biz xüsusilə kiçik və orta ölçülü müəssisələrin (KOM-lar) və mikro-müəssisələrin maliyyələşmə ehtiyaclarına dəstək göstərilməsi, investisiyaların cəlb edilməsi, iş yerlərinin və ticarət imkanlarının yaradılmasında fəallıq göstəririk. Biz 2009-cu ildən bəri kiçik müəssisələri 2.7 milyard avro məbləğində kredit xətləri (o cümlədən yerli valyutalarda) və zəmanətlərlə təmin etmişik.

Bankın kiçik və orta ölçülü müəssisələrə dəstəyi Dərin və Hərtərəfli Azad Ticarət Sahəsi (DCFTA) sazişi, KOM-lar üçün Birbaşa Dəstək Fondu və həm məsləhət xidmətləri, həm də maliyyə alətləri təmin edən İnnovFin təşəbbüsünə əsaslanır.

AİB 2009-cu ildən bəri 590 milyon avro dəyərində bir sıra korporativ layihələrlə sənayeyə dəstək göstərib. Şirkətlərin böyüməsinə kömək etməklə yanaşı, Bank onların həm də tender, ətraf mühitin mühafizəsi və texniki spesifikasiyalarla bağlı Aİ standartlarına əməl etməsinə köməklik göstərib.

### Xüsusi layihələr:

- AİB **60 milyon avro** dəyərində kredit vasitəsilə Ukraynanın ProCredit Bankına kiçik və orta biznesə dəstək üçün yerli valyutada maliyyələşdirmə təmin edib. O, həmçinin Gürcüstandakı TBC Bank üçün DCFTA vasitəsilə kiçik biznes üçün **2.6 milyon avro** dəyərində kredit zəmanəti təmin etməklə, KOM-lar üçün güzəştli şərtlərlə kreditlərə çıxış imkanı yaratmış və təminat tələblərini azaltmışdır.

- AİB Ukraynada **14 min nəfərdən** artıq işçiyə malik bir iri şirkətə **250 milyon dollar** məbləğində kredit təmin edib. Şirkət, öz növbəsində, aqro-infrastruktur yaratmaq və müasir toxum yağı istehsalı zavodu tikmək üçün **40 kiçik müəssisəni** subpodrat müqaviləsi əsasında layihəyə cəlb edib. Layihə yerli fermerlər üçün stabil gəlir təmin etməyə imkan verdi və daha geniş miqyasda icma bu layihədən faydalandı.



## TEN–T ŞƏBƏKƏSİ

AİB Şərq Tərəfdaşlığı regionu daxilindəki ölkələri bir-biri ilə və Aİ ilə əlaqələndirəcək genişləndirilmiş TEN-T nəqliyyat şəbəkəsinin maliyyələşdirilməsini öhdəsinə götürüb. TEN-T şəbəkəsi sərhədlərdən keçidi yaxşılaşdıracaq və mövcud infrastrukturu müasirləşdirərək çatışmazlıqları aradan qaldıracaq. Bu şəbəkəyə avtomobil yollarının, dəmir yollarının, dəniz limanlarının, hava limanlarının və logistik mərkəzlərin tikintisi və bərpası daxildir. Bundan əlavə, AİB bir sıra Şərq Tərəfdaşlığı ölkələrində investisiyalar və məsləhət dəstəyi vasitəsilə yol təhlükəsizliyinə əlavə dəstək göstərəcək.

# DAHA GÜCLÜ ƏLAQƏLİLİK

### REGİONUN DAHA YAXŞI NƏQLİYYAT VASİTƏSİLƏ AVROPA İTTİFAQI İLƏ ƏLAQƏLƏNDİRİLMƏSİ

Nəqliyyat iqtisadi artım və rəqabətlilik üçün əsasdır. Aİ bankı olaraq, AİB Şərq Tərəfdaşlığı regionu ilə Aİ arasında əlaqəliliyin yaxşılaşdırılmasına yönələn infrastruktur layihələrini maliyyələşdirir. Buraya dəmir yolları, avtomobil yolları və su nəqliyyatı daxildir. 2009-cu ildən bəri AİB ümumi dəyəri 3.1 milyard avro olan 25 nəqliyyat infrastrukturu layihəsini maliyyələşdirib.

**Nəqliyyat kreditləri, növ üzrə (2009–2018)**



## DAHA YAŞIL, TƏHLÜKƏSİZ VƏ ETİBARLI ENERJİ

AİB enerji səmərəliliyi, enerji dayanıqlılığı və təchizatının etibarlılığının gücləndirilməsi və istixana qazı emissiyalarını azaltmaq üçün bərpa olunan enerjidən istifadənin artırılmasına investisiyaları dəstəkləyir. Bizim investisiyalarımız yalnız Avropa boyunca inteqrasiyalı və dayanıqlı enerji bazarı yaratmağa kömək edəcək enerji şəbəkələrinin genişləndirilməsini deyil, həm də emissiyaları və enerji xərclərini azaltmaq üçün enerjidən daha səmərəli istifadəni hədəfləyir.

### Xüsusi layihələr:

- Moldova Respublikasını Rumıniya və Aİ-nin elektrik enerjisi bazarı ilə əlaqələndirəcək **600 meqavatt gücündə şəbəkələrarası birləşmə** yaratmaq üçün istifadə olunacaq **158 km** uzunluğunda yeni ötürücü xətlər üçün **80 milyon avro**. Layihə Moldovanın enerji resurslarını şaxələndirməyə və enerji təhlükəsizliyini artırmağa kömək edəcək.

- Yerevan Enerji Səmərəliliyi layihəsi çərçivəsində **150-ə yaxın bağçanın** təmiri üçün **7 milyon avro**. Bu layihə binaları seysmik fəallığa qarşı möhkəmləndirəcək və enerji səmərəliliyini artıracaq (damın izolyasiyası, yeni səmərəli istilik sistemi, LED işıqlandırma və günəş enerjisi sistemləri). Layihə karbon dioksid tullantılarını ildə 5502 ton azaldacaq və **34500 uşaq, müəllim və işçi heyət üzvlərinin** həyatlarını yaxşılaşdıracaq. Bu fəaliyyət Şərqi Avropa Enerji Səmərəliliyi və Ətraf Mühit Tərəfdaşlığı tərəfindən ayrılan **5 milyon avro** qrant sayəsində mümkün olmuşdur.

## SƏMƏRƏLİLİK DİQQƏT MƏRKƏZİNDƏ

Şərq Tərəfdaşlığı regionunda AİB binalar və şəhər istilik sistemləri üçün enerji səmərəliliyinin artırılması məqsədilə bir sıra proqramları maliyyələşdirir. Kreditdən əlavə, AİB regiondakı şəhərlərdə dayanıqlı enerji ilə bağlı tədbirlərə və iqlim dəyişikliyinə qarşı mübarizəyə dəstək göstərən məsləhət mexanizmi (Qonşuluq İnvestisiyası Fondu tərəfindən maliyyələşdirən Şəhərlərə Dəstək Layihəsi Mexanizmi) yaradıb.

## ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ VƏ İQLİM DƏYİŞİKLİYİNƏ UYĞUNLAŞMANIN DƏSTƏKLƏNMƏSİ

2009-cu ildən bəri, AİB regionda ümumi dəyəri 572 milyon avro olan investisiyalar vasitəsilə bir sıra su və kanalizasiya layihələrinə dəstək göstərib. Bank icmalar üçün su təchizatı və çirkab suların toplanması və təmizlənməsi xidmətlərinin keyfiyyətini yaxşılaşdırmağa kömək etmiş, ölkələrin sağlamlıq və ətraf mühitlə bağlı milli və beynəlxalq normalara əməl etməsinə imkan yaratmış, həmçinin yerli ətraf mühiti yaxşılaşdırmışdır.

### Xüsusi layihələr:

- Gürcüstanda su təchizatı sistemlərinin genişləndirilməsinə, yenidən qurulmasına və bərpasına dəstək üçün **AİB tərəfindən 104.6 milyon avro** kredit ayrılıb. Kredit təhlükəsiz içməli suya çıxışın artırılması ilə bağlı Kutaisi şəhərində həyata keçirilən iki böyük layihə və Ureki, Zuqdidi və Poti şəhərlərində həyata keçirilən bir sıra daha kiçik layihələrə yönəlir. Eyni zamanda xidmətlərin əhatə dairəsinə və keyfiyyətinə yönələn layihəyə texniki auditlər üçün Qonşuluq İnvestisiyası Platforması tərəfindən qrant dəstəyi ayrılıb.

# DAHA GÜCLÜ İDARƏÇİLİK, QURUMLAR VƏ DAYANIQLILIQ

AİB Şərq Tərəfdaşlığı ölkələrinin böhran və şoklara qarşı öz davamlılığını artırmaq və eyni zamanda güclü artımı qoruyub saxlamaq istiqamətində göstərdikləri səylərə dəstək verir. Bank sakinlərin və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılmasına, əsas inzibati ehtiyaclarının qarşılanmasına və iqtisadi təşəbbüslərinin dəstəklənməsinə istiqamətlənən layihələrə investisiya edir. Ukraynada Bank son dövrlərdəki münaqişələrdən sonra ölkənin dirçəlməsinə yönələn əməliyyatları maliyyələşdirərək, qısamüddətli bərpanı dəstəkləyir, ilkin xidmətləri və əsas infrastrukturu bərpa edir.

## Xüsusi layihələr

- Ukrayna Erkən Bərpa Layihəsi Donetsk və Luqansk vilayətlərinin hökumətin nəzarətində olan ərazilərində və Xarkov, Dnepr və Zaporojya vilayətlərinin qonşu ərazilərində **investisiyaların maliyyələşdirilməsi üçün 200 milyon avro** təmin edir. AİB-in maliyyələşdirməsi məcburi köçkünlərin axınının güclü olduğu regionlardakı şəhərlərə sosial infrastruktur və sığınacaqların üzərinə düşən yükü daha yaxşı idarə etməkdə kömək edir. Kredit su və kanalizasiya xidmətlərinin, elektrik enerjisi və istiliyin təchizatının bərpa edilməsinə və yaxşılaşdırılmasına yönələn səyləri dəstəkləyir. Kredit həmçinin zədələnmiş dövlət binalarının, o cümlədən inzibati binaların, məktəblərin, klinikaların və xəstəxanaların və digər sosial infrastrukturun bərpasını əhatə edir.

- Bank daşqınların qarşısının alınması və daşqından müdafiə üzrə baş planın və coğrafi informasiya sistemi əsasında çayların idarə edilməsi və monitorinqi sisteminin yaradılması üçün Moldova Respublikasına **2 milyon avro** dəyərində texniki yardım göstərib. Texniki yadım həmçinin daşqınlara qarşı müdafiənin (məsələn, daşqından müdafiə qurğuları, sututar, çay tutumunun artması) təmin edilməsinə yönələn investisiya layihələrinin müəyyən edilməsinə kömək edir. Proqrama AİB tərəfindən idarə edilən Şərq Tərəfdaşlığı Texniki Yardım Məqsədli Fondunun ianəçiləri tərəfindən dəstək göstərilib.



# DAHA GÜCLÜ CƏMİYYƏT

AİB təhsil sahəsində layihələri maliyyələşdirir. Yaxşı ali və dövlət təhsili infrastrukturu təlim-tədris mühitini yaxşılaşdırır və tədqiqat və innovasiyaları stimullaşdırır. Təhsil insan kapitalının inkişaf etdirilməsi üçün çox vacibdir. İnsan kapitalı isə öz növbəsində gəlirlərin, məhsuldarlığın və məşğulluğun artmasına gətirib çıxarır. Bizim layihələrimiz standartların Avropa İttifaqında istifadə olunan standartlara yaxınlaşdırılmasına kömək edir.

## Xüsusi layihələr:

- Ukrayna Ali Təhsil Layihəsi enerji səmərəliliyini və tələbələrin rahatlığını artırmaq məqsədilə 21 universitetdə mövcud tədris, tədqiqat və dəstək təsisatlarının təmirini maliyyələşdirib. **160 milyon avro məbləğində investisiya**dan əlavə, layihə həmçinin Aİ-nin Qonşuluq İnvestisiyası Platforması və Şərqi Avropa Enerji Səmərəliliyi və Ətraf Mühit Tərəfdaşlığı vasitəsilə, Aİ tərəfindən qrant dəstəyi ilə təmin edilib.

# XÜSUSİ LAYİHƏLƏR



## ERMƏNİSTAN

**AİB-İN KREDİT ÖHDƏLİYİ: 404 MİLYON AVRO**

Ermənistanda M6 avtomagistralının təmiri (51 milyon avro) ölkəni Gürcüstan və digər ölkələrlə əlaqələndirən önəmli nəqliyyat dəhlizini əhatə edir. Ermənistanın beynəlxalq nəqliyyat hərəkətinin 60%-dən artığı bu yolun payına düşür. Bu yol Ermənistanın beynəlxalq ticarəti üçün xüsusilə önəmlidir. Eyni zamanda, AİB ölkədə yol təhlükəsizliyinin yaxşılaşdırılması üçün Aİ tərəfindən dəstəklənən proqram icra edəcək.

## AZƏRBAYCAN

**AİB-İN KREDİT ÖHDƏLİYİ: 96 MİLYON AVRO**

AİB kiçik və orta ölçülü müəssisələrin layihələrinin dəstəklənməsinə 25 milyon avro təmin edir. Maliyyə vəsaitləri Azərbaycanda kiçik bizneslərin əsas maliyyə təminatçısı olan AccessBank vasitəsilə paylanılır. Bu əməliyyat özəl sektorun inkişafına təkan verməklə, Azərbaycanda iş yerlərinin yaranmasına və yaşayış standartlarının yüksəlməsinə töhfə verəcək.





## BELARUS

**AİB-İN KREDİT ÖHDƏLİYİ: 159 MİLYON AVRO**

AİB-in 84 milyon avro dəyərində krediti Minsk şəhərində 2 milyona yaxın vətəndaşa xidmət göstərən çirkab suların toplanması və təmizlənməsi xidmətlərinin müasirləşdirilməsinə töhfə verəcək. Kredit yeni ilkin təmizləmə qurğularının, bioloji təmizləmə üçün yeni aerasiya çənlərinin quraşdırılması, çirkab sularının ultrabənövşəyi dezinfeksiyası və lilin müasir vasitələrlə təmizlənməsinə yönəlir. İnvestisiyalar enerji səmərəliliyini, yerli ətraf mühiti və insanların gündəlik həyatlarını yaxşılaşdıracaq.



## GÜRCÜSTAN

**AİB-İN KREDİT ÖHDƏLİYİ: 1.8 MİLYARD AVRO**

Şəhərlərdə yenidənqurma və inkişaf üçün nəzərdə tutulan 50 milyon avro 2015-ci ildə Tbilisini və ətraf əraziləri su altında qoyan dağıdıcı daşqınların vurduğu zərəri aradan qaldıracaq. Layihə həmçinin ilkin xidmətlərin bərpasına, əsas infrastrukturun yenidən qurulmasına və iqtisadi dirçəliş üçün əlverişli mühitin yaradılmasına kömək edəcək.

## MOLDOVA

**AİB-İN KREDİT ÖHDƏLİYİ: 755 MİLYON AVRO**

24 milyon avro dəyərində kredit Kişinyovda su təchizatı xidmətləri və çirkab suların toplanması və təmizlənməsi qurğularının bərpasına kömək etməklə, su və kanalizasiya xidmətlərinin keyfiyyətini, səmərəliliyini və dayanıqlılığını artıracaq və 800 000 vətəndaşın həyat keyfiyyətini yaxşılaşdıracaq. Bu investisiya su sızmalarını və enerji istehlakını azaldacaq.





## UKRAYNA

**AİB-İN KREDİT ÖHDƏLİYİ: 5.5 MİLYARD AVRO**

75 milyon avro dəyərində çərçivə krediti vasitəsilə, Bank sürücülər və ən həssas yol istifadəçiləri (məsələn, piyadalar və velosipedçilər) üçün yol təhlükəsizliyinin yaxşılaşdırılması üçün şəhər nəqliyyat infrastrukturunu maliyyələşdirir. Yol təhlükəsizliyinin yaxşılaşdırılması və qəzaların azaldılmasından əlavə, investisiya zəif yol təhlükəsizliyinin yaratdığı dolayı xərclərin azaldılması potensialına malikdir. Layihə Aİ-nin texniki yardım dəstəyindən faydalanır.

AİB Avropa İttifaqının bankıdır və Aİ-nin Üzv Dövlətlərinə məxsusdur. 2018-ci ildə AİB Qrupu Avropanın daxilində və xaricində **80 milyard avroya** yaxın investisiya təmin edib. Biz **dünyanın ən iri çoxtərəfli borcalan və borcverən qurumuyuq**.


European Investment Bank The EU bank

EaP Eastern Partnership

Avropa İnvestisiya Bankı
98 –100, boulevard Konrad Adenauer
L-2950 Lüksemburq
+352 4379-1
www.eib.org

twitter.com/EIB
facebook.com/EuropeanInvestmentBank
youtube.com/EIBtheEUbank

Lionel Rapaille
Dövlət Sektoru Bölməsinin Müdiri
+352 4379-86872
l.rapaille@eib.org – OPS_NC-2@eib.org

Nathalie Climence
Özəl Sektor – Korporasiyalar Bölməsinin Müdiri
+352 4379-86709
n.climence@eib.org – OPS_NC-3@eib.org

Marion Hoenicke
Özəl Sektor – Banklar Bölməsinin Müdiri
+352 4379-87406
m.hoenicke@eib.org – OPS_NC-4@eib.org

Antonio Castillo
AİB-in Moldova Respublikasındakı Nümayəndəliyinin Müdiri
Moldova, Republic of
Str. Vlaicu Pîrcălab 63
MD-2012 Chisinău
+373 2280-7277
+373 2280-7220
chisinau@eib.org

Maciej Czura
AİB-in Cənubi Qafqaz Regionundakı Regional Nümayəndəliyinin Müdiri
1 G. Tabidze Street, Freedom Square
0105 Tbilisi
Georgia
+99 3220-6284
tbilisi@eib.org

Jean-Erik De Zagon
AİB-in Ukraynadakı Nümayəndəliyinin Müdiri
101, Volodymyrska Str
UA-01033 Kiev
+380 4439-08018
+352 4379-67495
kiev@eib.org


08/2019 AZ Şəkillər: © AİB, Shutterstock